AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 SENTYABR 2021-ci il CÜMƏ № 204 (7100) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

Gün gələcək
Azərbaycan dünyaya günəş kimi doğacaq.

Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 sentyabr 2021-ci il.

Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur və Hövsan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 sentyabr 2021-ci il.

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub

Prezident İlham Əliyevin çıxışı

BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri davam edir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 23-də ümumi müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.

– Cənab Sədr.
Cənab Baş katib.
Hörmətli dövlət və hökumət başçıları.

Mən cənab Abdulla Şahidi BMT Baş Assambleyasının 76-cı sessiyasının sədri seçilməsi münasibətilə təbrik edir, ona vəzifəsinin icrasında uğurlar diləyirəm. Həmçinin qardaş Türkiyədən olan cənab Volkan Bozkıra BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri qismində liderliyinə görə dərin minnətdarlığımı bildirirəm.

(davamı 2-ci səhifədə)

Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd olunacaq

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd ediləcək.



AZƏRTAC xəbər verir ki, bununla əlaqədar olaraq bu il sentyabrın 27-də bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Təşkilat Komitəsindən verilən məlumata görə, Anım Günündə şəhidlərimiz Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad olunacaq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunacaq.

Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

Axşam saatlarında xüsusi işıqlandırma ilə bir sıra binalarda, o cümlədən Heydər Əliyev Mərkəzinin binasının və "Alov qüllələri"nin üzərində Azərbaycan bayrağı əks olunacaq. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən anım tədbirləri təşkil ediləcək.

Anım Günü ilə əlaqədar mərkəzi və yerli icra hakimiyyəti strukturları ölkə miqyasında bir sıra tədbirlər təşkil edəcək, eləcə də ölkəmizin xaricində anım mərasimləri keçiriləcək.

AZƏRTAC

AZƏRBAYCAN POLİSİ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SAYIQLIĞINI DAHA DA GÜCLƏNDİRİR

Azərbaycan-Ermənistan sərhədinin Qubadlı rayonundan keçən ərazisində, Gorus və Qafan rayonlarını birləşdirən magistral avtomobil yolunda bu yaxınlarda qurulmuş polis postunda xidmətdə olan həmvətənimizin öz vəzifəsini necə yerinə yetirməsini əks etdirən videogörüntülər son günlər trendə çevrilib.

Belə videokadrlardan birində Azərbaycan daxili işlər orqanının vətənpərvər əməkdaşının baxış keçirdiyi ermənilərə məxsus avtomobilin üzərindən qondarma rejiminin "atribut"unun təsvirini öz süngü-bıçağı ilə qaşıyıb-sökdüyü görünür. Bu mənzərəni nə vaxtsa seyr etməyi illər boyu arzulasaq da, onun tezliklə real olacağını güman etmirdik. Məhz möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə rəşadətli ordumuzun apardığı 44 günlük Vətən müharibəsindəki möhtəşəm Zəfər torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin öz sərhədlərinə nəzarəti tam ələ alması və suveren hüquqlarını həyata keçirməsi barədə arzularımızı gerçəkləşdirdi. Dövlətimizin başçısının hərbi-siyasi və diplomatik addımları, qəhrəman hərbçilərimizin qanı-canı bahasına Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, torpaqlarımızı otuz ilə yaxın işğal altında saxlayıb, hərbi cinayətlər, təbiətə və bəşəriyyətə qarşı terror törədən erməni faşizmi məhv edildi.

Böyük Qələbənin əldə olunmasında Azərbaycan daxili işlər orqanlarının özünəməxsus sanballı payı vardır. Ordumuzun tərkib hissələrindən olan daxili qoşunların xüsusi təyinatlıları 44 günlük Vətən müharibəsində hünərlə vuruşublar, Murov zirvəsinin, Cəbrayılın, Hadrutun, Füzulinin və Şuşanın azad edilməsi uğrunda döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstəriblər.

(davamı 4-cü səhifədə)

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 3, maddə 248; 2009, N 6, maddə 424; 2010, N 2, maddə 80, N 9, maddə 773; 2011, N 6, maddə 519; 2012, N 2, maddə 105; 2014, N 2, maddə 112, N 6, maddə 644, N 9, maddə 1027; 2016, N 8, maddə 1384, N 9, maddə 1518; 2017, N 8, maddə 1521, N 9, maddə 1664; 2018, N 8, maddə 1677; 2019, N 3, maddə 492; 2020, N 3, maddə 262) "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözlərindən sonra "Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 sentyabr 2021-ci il.

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub

(əvvəli 1-ci səhifədə)

COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir.

Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndləmə kampaniyasına başlayıb. Hər 100 nəfərə istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən artıqdır.

COVID-19-un təsirinə məruz qalmış əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün təqribən 2.7 milyard ABŞ dolları həcmində sosial-iqtisadi paket təqdim edilib.

Düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılıb. Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səyləri beynəlxalq səviyyədə qəbul edilib. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırıb.

Azərbaycan bütün bu fəaliyyəti özünün maliyyə resursları hesabına həyata keçirib. Biz, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmişik. Bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişik.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan bir sıra qlobal təşəbbüslər irəli sürüb. 2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu. Təşəbbüslərimizi dəstəkləyən BMT-nin Baş katibi cənab Antonio Quterreşə və bütün dövlətlərə minnətdarlığımı bildirirəm.

Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib. Biz davam edən "peyvənd millətçiliyi" və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq. Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır.

Bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib.

Cari sessiya çərçivəsində Azərbaycan BMT Baş Assambleyasında eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır.

Hesab edirik ki, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü, əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlara ehtiyac var. Bu mənada biz pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayacaq BMT-nin COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edirik.

Bu il Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyidir. Qoşulmama Hərəkatının 120 üzvünün yekdil qərarı ilə Azərbaycan 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş dövlət və hökumət başçılarının 18-ci Zirvə toplantısında üç il ərzində Hərəkata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan beynəlxalq ədalətin və beynəlxalq hüquq normalarının təmin edilməsini, habelə Hərəkata üzv dövlətlərin legitim maraqlarını güclü şəkildə müdafiə edir. Bu il Hərəkata üzv dövlətlər Azərbaycanın sədrliyini daha bir il - 2023-cü ilin sonuna qədər uzadılmasına dair yekdil qərar qəbul ediblər. Bu, bütün dünya üçün çətin bir dövrdə Azərbaycanın Hərəkata uğurlu və səmərəli şəkildə sədrlik etməsinin təsdiqi və yüksək qiymətləndirilməsinin əlamətidir.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir.

Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72.4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqələndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı Beynəlxalq Ticarət Limanını istifadəyə vermişik ki, onun yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər.

Azərbaycan Paris İqlim Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Bununla yanaşı, biz Paris Sazişi çərçivəsində 2050-ci il üçün şərti hədəflərin müəyyən edilməsi imkanlarını araşdırırıq.

Hazırda ölkənin ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Hədəfimiz 2030-cu ilə qədər bu rəqəmi 30 faizə çatdırmaqdır. Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində yaşıl enerji layihələrinə sərmayə qoymağa dəvət edirəm.

Mən azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru bu yaxınlarda Yaşıl Enerji Zonası elan etmişəm. Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi olmaqla təsdiq edilmiş bərpa olunan enerji potensialı var.

Xam neft və qaz ixracı ilə yanaşı, Azərbaycan son illərdə elektrik enerjisinin ixracatçısına çevrilib. Bu gün biz dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edirik. Eyni zamanda, əhalimizin artması və iqtisadi inkişaf ilə əlaqədar daxili enerji istehlakı da artmaqdadır. Cari ilin 8 ayı ərzində Azərbaycanın qeyri-neft sənayesi 18.4 faiz artmışdır.

Xanımlar və cənablar.

Azərbaycan xalqı öz kökünə, tarixinə, dilinə və ənənələrinə olduqca bağlı bir xalqdır. Mən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə bu ili "Nizami Gəncəvi İli" elan etmişəm. XII əsrdə Nizami Gəncəvinin öz əsərlərində təbliğ etdiyi sülh, ədalət, humanizm, azadlıq və bərabərlik kimi ideal və dəyərlər BMT-nin təsviq və müdafiə etdiyi prinsiplərlə üst-üstə düşür.

Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır. 2008-ci ildə Azərbaycanın təşəbbüsü ilə başlanılmış və müsəlman dünyası ilə Avropa arasında dialoq və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan "Bakı Prosesi" BMT tərəfindən güclü şəkildə dəstəklənir. BMT Baş Assambleyasının qətnamələrində Azərbaycanda müntəzəm olaraq təşkil olunan Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumu "mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma" olaraq tanınır.

Xanımlar və cənablar.

Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qurur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu.

Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır.

BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var.

ATƏT-in Minsk qrupu Ermənistan və Azərbaycan arasında münaqişənin həllinə nail olmaq məqsədilə 1992-ci ildə təsis edilmişdir. ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanı Azərbaycana qarşı hərbi təcavüzə son qoymağa məcbur etmək üçün qətiyyətli addımlar atsaydılar, onda üzərlərinə düşən vəzifələrin icrasına nail ola bilərdilər. Münaqişə dövründə Ermənistan öz yanaşması və hərəkətləri ilə nümayiş etdirirdi ki, onun yeganə məqsədi status-kvonu saxlamaq və işğalı möhkəmləndirməkdir. Mən dəfələrlə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyi məsələsini qaldırmışdım. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilmədi.

2018-ci ildə Ermənistanda hərbi cinayətkarlar Köçəryan-Sarkisyan rejimi devrildi. Bizim Ermənistanın yeni hökumətinin ciddi şəkildə danışıqlarda iştirak edəcəyi ilə bağlı müəyyən ümidlərimiz var idi. Biz Ermənistandan gələn istənilən müsbət siqnala cavab verməyə hazır idik. 2018-2019-cu illər keçmiş təmas xəttində ən sakit dövrlərdən biri idi. Lakin, Azərbaycanın müsbət addımlarına baxmayaraq, Ermənistanda rejimin dəyişməsi real dəyişikliklərlə nəticələnmədi. Ermənistanın yeni hökuməti də Azərbaycanla dinc qonşuluq əvəzinə, işğalın davam etdirilməsi yolunu seçdi.

Münaqişənin son iki ili ərzində Ermənistan qəsdən danışıqlar prosesini məhv etdi. Ermənistan hökuməti "Qarabağ Ermənistandır və nöqtə" və "bir qarış belə işğal olunmuş torpaq qaytarılmayacaq" kimi bir sıra təxribatçı bəyanat və hərəkətlərə yol verdi. Ermənistanın o vaxtkı müdafiə naziri açıq şəkildə Azərbaycanı yeni təcavüz və yeni işğal ilə hədələdi. Ermənistan qəbuledilməz və əsassız "yeddi şərt" irəli sürərək, danışıqlar formatının dəyişdirilməsi, danışıqlara sıfırdan başlanılması və Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yaradılmış qondarma rejimin danışıqlar prosesinə cəlb edilməsini tələb etdi. Danışıqların formatının və mahiyyətinin dəyişdirilməsi cəhdi Ermənistanın məsuliyyətsiz və təhlükəli hərəkətləri səbəbindən fəaliyyəti iflic olmuş ATƏT-in Minsk qrupunun həmsədrləri üçün xoşagəlməz sürpriz oldu.

Bundan əlavə, Cenevrə konvensiyaları da daxil olmaqla, beynəlxalq hüququn kobud şəkildə pozulması ilə Ermənistan açıq şəkildə qanunsuz məskunlaşdırma siyasətini həyata keçirərək, əsasən Yaxın Şərqdən olan erməni əsilli şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirirdi. İllər ərzində hökm sürən cəzasızlıqdan ruhlanan Ermənistan təcavüzün nəticələrini möhkəmləndirmək və qanunsuz məskunlaşdırmanı sürətləndirmək üçün Ermənistandan işğal olunmuş ərazilərimizə yeni yolun inşa ediləcəyini bəyan edirdi.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədi boyu hərbi təxribat törətdi. Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində 13 hərbçi və mülki vətəndaş həlak oldu.

Daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı.

Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsindəki çıxışımda mən xəbərdarlıq etmişdim ki, "Ermənistan rəhbərliyinin düşmən, Azərbaycanofob bəyanatları və təxribatları Ermənistanın Azərbaycana qarşı yeni hərbi təcavüzə hazırlaşdığını nümayiş etdirir".

Bundan üç gün sonra - sentyabrın 27-də Ermənistan Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücuma başladı. Buna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı.

44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi - Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Ermənistan, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tuturdu. Raketlərdən biri Azərbaycanın hava hücumundan müdafiə qoşunları tərəfindən Bakının yaxınlığında yerləşən Xızı üzərində zərərsizləşdirilmişdir. Bu isə onu göstərir ki, paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. Ermənistan "Skad" və "İsgəndər-M" tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə edirdi. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdılıb və ya onlara ciddi zərər dəyib.

Hərbçilər və mülki əhali arasında fərq qoyulmasına dair beynəlxalq humanitar hüququn fundamental prinsiplərinə riayət edən Azərbaycan Ermənistan tərəfindən dinc sakinlərin hədəfə alınması kimi qəddar hərbi cinayətlərə oxşar formada cavab vermədi.

Ermənistan, eyni zamanda, xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi.

44 günlük müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad etdi. Ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kənd azad edilmişdir. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən - Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram.

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərində Ermənistan tərəfindən illər ərzində çoxqatlı müdafiə xətlərinin və uzun səngərlər, tunel və bunkerlərdən ibarət istehkamların qurulması sübut edir ki, Ermənistan heç bir vəchlə bu əraziləri qaytarmaq niyyətində deyildi.

Təqribən 30 illik işğal ərzində Ermənistan qəsdən bütün şəhər və kəndləri dağıtmış, bütün mədəni və dini abidələri viran qoyaraq, talayaraq, onları əsl urbisid - şəhərlərə qarşı genosid və kulturisid - mədəniyyətə qarşı genosid nümunələrinə çevirmişdir. Yəqin ki, İkinci Dünya müharibəsindən bəri şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, onu "Qafqazın Hirosiması" adlandırırlar. Füzuli şəhərinin işğaldan azad olunmasından sonra ordumuz orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın.

Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb və təhqir edilib, onlardan donuz və inək tövləsi kimi istifadə edilib. Bu isə bütün dünya müsəlmanlarına qarşı hörmətsizlikdir. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Azad olunmuş ərazilərə səfərlər zamanı xarici diplomatlar, beynəlxalq təşkilatların nümayəndələri və xarici jurnalistlər Ermənistan tərəfindən törədilən vəhşiliyin şahidi olmuşlar. Şəhər və kəndlərin, o cümlədən Azərbaycan xalqına məxsus mədəni və dini irsin tamamilə dağıdılması beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb.

Azərbaycan tərəfindən hər bir ölkənin BMT-dəki nümayəndəliyinə şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab təqdim edilib. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması öz əksini tapıb.

Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib.

Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir.

Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etdi. Ermənistan qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edirdi.

Ermənistan transsərhəd Oxçuçay çayını kəskin şəkildə çirkləndirir. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi ərazinin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyur. Təəssüflər olsun ki, bəzi xarici şirkətlər də bu ekoloji cinayətdə iştirak edir.

Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb. Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqları 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapılıb.

Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır.

Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş və 1998-2018-ci illərdə hakimiyyətdə olmuş səhra komandirləri Azərbaycan ərazilərinin 30 ilə qədər davam edən işğalı ərzində məkrli arzularına və məqsədlərinə çatmaqda uğursuzluğa düçar oldular. Əksinə, 2017-ci ildə BMT Baş Assambleyasındakı çıxışımda qeyd etdiyim kimi, Ermənistan tam iflasa uğramış dövlətə çevrilib. Ermənistan o dərəcədə zəifləyib ki, heç özü sərhədlərini belə qorumaq iqtidarında deyil.

Ermənistanda hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiya artmaqdadır. Etnik nifrət və düşmənçilik üzərində qurulmuş, erməni cəmiyyətində aşılanan irqçi ideologiya Azərbaycanın Ermənistan tərəfindən keçmiş işğal olunmuş ərazilərində etnik təmizləmənin və misilsiz vandalizmin kökündə durur. Ermənistanda rejim dəyişikliyinə baxmayaraq, ölkədə faşist ideologiyası hökm sürməkdə davam edir. Ermənistanda bütün hakimiyyətlər dövründə "milli qəhrəman"a çevrilmiş nasist general Qaregin Njdenin simasında nasizm vəsf edilir.

Mütərəqqi dünya artan neo-faşizm ilə mübarizə apardığı bir vaxtda, 2016-cı ildə Ermənistanın o vaxtkı prezidenti İrəvanda Qaregin Njdenin heykəlinin açılışını edib. Azərbaycan təkcə Ermənistanın işğalçı qüvvələrini deyil, həm də erməni faşizmini məğlub edib. Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik.

Xanımlar və cənablar.

Münaqişə artıq keçmişdə qaldığından azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Azərbaycan müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür və təkcə bu il bu məqsədlə 1.3 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb.

Lakin əsas çətinlik azad olunmuş ərazilərdə Ermənistan tərəfindən yerləşdirilmiş çoxsaylı minaların mövcudluğu ilə bağlıdır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra bu günə qədər 2 jurnalist daxil olmaqla, 30 Azərbaycan vətəndaşı həlak olmuş, 130 nəfər isə yaralanmışdır. Azərbaycan dünyada ərazilərinin ən çox minalandığı ölkələrdən biridir. Bu, azad olunmuş ərazilərdə bərpa prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Ermənistan dəqiq mina xəritələrini Azərbaycana verməkdən imtina edir. Ermənistanın üç rayon üzrə təqdim etməyə məcbur olduğu mina xəritələrinin dəqiqliyi 25 faizdir. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş ərazilərimiz üzrə dəqiq mina xəritələrini bizə təqdim etsin.

Münaqişə başa çatdığından Azərbaycan Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyası, bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi əsasında sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu artıq bəyan edib. Belə bir saziş regionumuzu sülh və əməkdaşlıq regionuna çevirə bilər. Lakin, biz hələ də təklifimizlə bağlı Ermənistandan müsbət reaksiya görməmişik.

Sülh və əməkdaşlığa xidmət edən sahələrdən biri nəqliyyat layihələri ola bilər. Bu kontekstdə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi regionumuz üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır.

Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olunacaq. Azərbaycan regional sülhə və inkişafa töhfə verən, onun gücləndirilməsinə xidmət edən ardıcıl səylərini davam edəcəkdir.

Sağ olun.

AZƏRTAC

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, N 1, maddə 90, N 11, maddə 1719; 2020, N 8, maddə 1039, N 12 (I kitab), maddə 1479; 2021, N 3, maddə 225, N 5, maddə 452, N 6 (I kitab), maddə 572) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7.1.76-cı yarımbəndindən "İqtisadiyyat Nazirliyi," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 sentyabr 2021-ci il.

"Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 6, maddə 1177; 2018, N 3, maddə 529; 2020, N 3, maddə 264) "Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti" sözlərindən sonra "Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İsrail Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 sentyabr 2021-ci il.

İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti Ulu Öndərin məzarını ziyarət edib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyası sədrinin rəhbərlik etdiyi ekspertlərdən ibarət beynəlxalq nümayəndə heyəti sentyabrın 23-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyeva, görkəmli ictimai xadim Əziz Əliyev və Əməkdar elm xadimi, professor Tamerlan Əliyevin xatirələri ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri düzülüb.

AZƏRTAC

YAP Veteranlar Şurasının təşkilatçılığı ilə "Tarixi zəfər salnaməsi" mövzusunda konfrans keçirilib

Sentyabrın 23-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "Tarixi zəfər salnaməsi" mövzusunda videoformatda konfrans keçirilib.

Partiyanın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, torpalarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Sonra YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Şuşa, Ağcabədi, Tərtər, Goranboy, Bərdə, Laçın, Cəbrayıl, Xocalı, Füzuli, Xocavənd rayon təşkilatlarının fəal üzvlərinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, 44 günün tarixə yazdığı qürurverici, şanlı səhifə harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya böyük sevinc bəxş edib. Bu xoşbəxtliyi bizlərə yaşadan dövlətimizin başçısı, Ali Baş Komandana, rəşadətli Azərbaycan Ordusuna, bütün əsgər və zabit heyətinə minnətdarlığımızı ifadə edirik. 44 gün davam edən Vətən müharibəsi bir daha Prezident-xalq-ordu birliyini nümayiş etdirib. Xalqımız tam əmin idi ki, dövlətimizin qətiyyətli mövqeyi, Ordumuzun gücü, qüdrəti sayəsində uğurla həyata keçirilən əks-hücum əməliyyatları otuz ildən artıq davam edən işğala son qoyacaq! Bu gün Zəfərimizin yaratdığı yeni reallıqlardan bəhs edir, işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən bərpa və quruculuq işlərindən danışırıq. Zəfərin mübarək, Azərbaycan!

Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Adil Nastakalov dövlətimizin ordu quruculuğu istiqamətində atdığı addımlardan geniş bəhs edib. Bildirib ki, Azərbaycan bu tarixi Zəfəri ilə dünyanın hərb tarixinə yeni səhifə yazıb. Bu gün ölkəmizin müharibə təcrübəsi, Vətən müharibəsində tətbiq etdiyi strategiya beynəlxalq ekspertlər tərəfindən öyrənilir.

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova Zəfərimizin tariximizin ən parlaq səhifəsi olduğunu önə çəkərək bu uğura qədər keçilən yola nəzər salıb. Bildirib ki, ulu öndər Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin diplomatik mübarizədə, döyüş meydanında göstərdiyi qətiyyət, Ordumuzun gücünün, qüdrətinin artması yönündə atdığı addımlar müsbət nəticəsini verib.

Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, 44 gündə 30 il işğal altında olan torpaqlarımızı azad etmək heç də asan olmayıb. Azərbaycan Ordusu buna hazır idi. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti bu Qələbəmizi təmin edib.

Aprel döyüşləri şəhidi polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova qeyd edib ki, Aprel döyüşləri Zəfərimizin başlanğıcıdır. Bu döyüşlər həm gənclərimizin şüurunda yeniliklər etdi, həm də torpaqlarımıza qayıtmağa inamımızı daha da gücləndirdi, sabaha ümidləri artırdı. Müzəffər Ali Baş Komandanın qətiyyəti, Azərbaycan Ordusunun rəşadəti sayəsində torpaqlarımız tarixi sahiblərinə qovuşdu.

Tədbir müzakirələr şəklində davam etdirilib. Partiya fəalları Elmir Məmmədovun, Həsən Şirinovun Zəfərimizə gedən yolu özündə əks etdirən sualları cavablandırılıb.

AZƏRTAC

Ombudsman İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyası (İƏT MDİHK) sədrinin rəhbərlik etdiyi ekspertlərdən ibarət nümayəndə heyətini qəbul edib.

Qurumun mətbuat xidmətinin məlumatında deyilir ki, Ombudsman Səbinə Əliyeva qonaqlara Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzkarlıq, işğalçılıq və terror siyasəti nəticəsində soydaşlarımızın insan hüquqlarının kobud şəkildə pozulması, mülki əhaliyə qarşı törədilən müharibə cinayətləri barədə ətraflı məlumat verib.

Ombudsman 27 sentyabr 2020-ci il tarixində Ermənistanın növbəti ərazi iddiaları ilə ölkəmizə qarşı təcavüzü zamanı yaşayış obyektlərinə, sosial infrastruktura, mədəni-tarixi abidələrə ziyan dəymiş, eyni zamanda mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə olunması nəticəsində uşaq, qadın, ahıllar da daxil olmaqla çoxsaylı insan tələfatı və dağıntıların olduğunu bildirib. Müvəkkil vurğulayıb ki, Azərbaycan Respublikası özünümüdafiə hüququndan istifadə edib və əzəli torpaqlarının bütövlüyünün bərpası məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz əks-həmlə əməliyyatlarına başlamış və 44 günlük Vətən müharibəsi nəticəsində tarixi ədalət bərqərar olunmuş, işğal altında olan ərazilərimiz azad edilmişdir.

Görüşdə səfər çərçivəsində həyata keçiriləcək faktaraşdırıcı missiya, Ermənistanın Azərbaycan ərazilərində törətdiyi müharibə cinayətləri, mədəni abidələrin dağıdılması faktları və həyata keçirilmiş ekoloji terrorun nəticələri barədə müzakirələr aparılıb.

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Saeed Mohamed Abdulla Omair Alghfeli Azərbaycan Ombudsmanı Səbinə Əliyevaya dəvətə görə öz dərin təşəkkürünü bildirib, faktaraşdırıcı missiyanın məqsəd və məramı haqqında fikir mübadiləsi aparıb.

Xəbər verildiyi kimi, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Saeed Mohamed Abdulla Omair Alghfeli, sədrin müavini Açıkgül Hacı Ali, Komissiya katibliyinin direktoru Javed Saqlain, Komissiya katibliyinin icraçı direktoru Butt Marghoob Saleem işğaldan azad edilmiş, həmçinin Vətən müharibəsi zamanı hərbi əməliyyatların aparıldığı ərazilərdən uzaqda yerləşən, mülki əhali və infrastrukturlara hədəflənmiş raket hücumları nəticəsində dağıdılmış ərazilərdə birgə faktaraşdırıcı missiya həyata keçirmək məqsədilə Ombudsmanın dəvəti ilə ölkəmizdə rəsmi səfərdədirlər.

Zümrüd ABDULLAYEVA,
"Respublika".

Azərbaycan ilə İsveç arasında əməkdaşlığın genişləndirilməsi məsələləri ilə bağlı müzakirələr aparılıb

BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov sentyabrın 22-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyi və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov bölgədə olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistanın ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd davranışı və digər məsələlər barədə həmkarına məlumat verib. Eyni zamanda, münaqişədən sonrakı bərpa və yenidənqurma mərhələsi ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər Azərbaycanın ATƏT ilə əməkdaşlığı, habelə ATƏT-in Nazirlər Şurasının toplantısına hazırlıq məsələlərini müzakirə ediblər.

Görüşdə tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər üzrə fikir mübadiləsi aparıblar.

AZƏRTAC

Peter Siyarto:

Macarıstan münaqişənin təsirinə məruz qalan ərazilərin bərpası prosesində iştirakda maraqlıdır

BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov sentyabrın 22-də Macarıstan xarici işlər naziri Peter Siyarto ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə əvvəlcə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Macarıstanın Milli Arxivi arasında "Arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluq ifadə olunub, Azərbaycan və macar xalqları arasında münasibətlərin tarixi köklərə əsaslandığı vurğulanıb.

Həmçinin iki ölkə arasında nəqliyyat, enerji, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan cari vəziyyət, münaqişə sonrası yaranmış yeni əməkdaşlıq imkanları, habelə azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa işləri barədə ətraflı məlumat verib.

Macarıstan tərəfi münaqişənin təsirinə məruz qalan ərazilərin bərpası və quruculuğu prosesində iştirakda maraqlı olduğunu ifadə edib.

Peter Siyarto Macarıstana dost ölkə olan Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verildiyini və ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bildirib.

Macarıstanla Azərbaycan arasında enerji sahəsində də geniş əməkdaşlıqdan danışan nazir qeyd edib ki, Azərbaycan enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaşdır və Avropaya enerji təchizatı marşrutlarının şaxələndirilməsinin təmin edilməsində mühüm rol oynayır.

Görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişafı, habelə tərəfləri maraqlandıran digər məsələlər müzakirə edilib.

AZƏRTAC

Ceyhun Bayramov Madaqaskar, Nikaraqua, Kabo Verdenin xarici işlər nazirləri ilə görüşüb





Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatına (QH) üzv dövlətlərdən Madaqaskar xarici işlər naziri Patrik Rajoelina, Nikaraqua xarici işlər naziri Denis Moncada Kolindres və Kabo Verdenin xarici işlər naziri Rui Figeredo Soares ilə ikitərəfli görüşlər keçirib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə Azərbaycan ilə QH üzv ölkələrinin əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Tərəflər mədəniyyət, turizm, nəqliyyat, humanitar, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə edib, habelə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşlərdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək, BMT Baş Assambleyasının 76-cı sessiyasının gündəliyi üzrə maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı Azərbaycanın Hərəkatda sədrlik prioritetləri müzakirə mövzusu olub. Nazir Ceyhun Bayramov Azərbaycanın pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı etdiyini və bunun yarısının Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulduğunu qeyd edib. Həmçinin Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizdə təhsil almaq imkanı verən təqaüd proqramı barədə qarşı tərəfə məlumat verilib.

Müqabil tərəflər Azərbaycanın QH-yə uğurlu sədrliyini və Azərbaycan Prezidentinin QH sədri qismində COVİD-19-a qarşı mübarizə ilə bağlı irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüsləri təqdir etdiklərini bildiriblər.

Tərəflər beynəlxalq gündəlikdəki cari məsələlər, o cümlədən regional vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistanın növbəti təcavüzünə cavab olaraq ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi, 10 noyabr tarixli üçtərəfli Bəyanat və onun icrası barədə qarşı tərəfə məlumat verib. Eyni zamanda, münaqişədən sonrakı bərpa və yenidənqurma mərhələsini qeyd edən Ceyhun Bayramov, yeni təhlükəsizlik və əməkdaşlıq çərçivəsinin yaradıldığını və bunun bölgənin inkişafı və rifahı üçün yeni imkanlar açdığını bildirib.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

AZƏRTAC

Finlandiyanın XİN rəhbəri:

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi təqdirəlayiqdir

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirakı çərçivəsində sentyabrın 22-də Finlandiyanın xarici işlər naziri Pekka Olavi Haavisto ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə edilib və bu əlaqələrin genişləndirilməsi perspektivləri barəsində fikir mübadiləsi aparılıb, həmçinin hazırda Azərbaycan ilə Finlandiya arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu vurğulanıb.

Görüş zamanı ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən siyasi, iqtisadi, humanitar, təhsil, kənd təsərrüfatı, yüksək texnologiyalar, sərmayə qoyuluşu, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dair, eləcə də regional təhlükəsizlik məsələləri, üçtərəfli Bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi və etimadın qurulması tədbirlərinin reallaşması üzrə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizdəki son vəziyyət, bu ərazilərdə Ermənistan tərəfindən məqsədli şəkildə törədilən genişmiqyaslı dağıntılar, tarixi-mədəni irsin məhv edilməsi, ətraf mühitə böyük zərərin vurulması, habelə mina təhlükəsi barədə danışıb, hazırda həyata keçirilən bərpa və yenidənqurma prosesi haqqında qarşı tərəfə ətraflı məlumat verib. O, Azərbaycana qarşı onilliklər ərzində həyata keçirilən təcavüzkar siyasətə rəğmən, ölkəmizin beynəlxalq hüquq prinsipləri əsasında qonşu dövlətlə münasibətləri normallaşdırmağa hazır olduğunu qeyd edib.

Tərəflər, həmçinin ATƏT çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Pekka Haavisto ölkəsinin Azərbaycanla müxtəlif istiqamətlər üzrə əlaqələri genişləndirməkdə maraqlı olduğunu ifadə edib. O, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyinin təqdirəlayiq olduğunu bildirib və üçtərəfli Bəyanatın icrasının vacib olduğunu vurğulayıb.

Daha sonra tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

AZƏRTAC

“Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının təqdimatı keçirilib

Sentyabrın 23-də Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı ilə cari iqtisadi vəziyyət və biznesin inkişaf perspektivləri, həmçinin ölkədə investisiya mühiti və həyata keçirilən iqtisadi islahatların səmərəliliyi haqqında “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının təqdimatı keçirilib. Tədbirdə yerli və beynəlxalq işgüzar dairələrin 100-dən çox nümayəndəsi iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Alman-Azərbaycan Xarici Ticarət Palatası tərəfindən nəşr olunan “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının ölkəmizdə pandemiyanın iqtisadiyyata təsirinin müəyyənləşdirilməsi və təhlil edilməsində, həmçinin mənfi təsirlərin minimuma endirilməsi istiqamətində həyata keçirilən islahatların qiymətləndirilməsində faydalı platforma olduğunu vurğulayıb, bu cür hesabatların işgüzar dairələrin rəyinin öyrənilməsi, biznes çağırışlarının dəyərləndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Nazir ölkəmizdə biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun, regionların və sahibkarlığın inkişafı ilə bağlı görülmüş işlər, pandemiyanın Azərbaycanda biznes mühitinə təsiri və hökumətin dəstək mexanizmləri, sənaye zonalarının, həmçinin Ələt Azad İqtisadi Zonasının logistika imkanları barədə məlumat verib. Milli Prioritetlərimizdən olan işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış, bu ərazilərdə reallaşdırılacaq “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarından danışan Mikayıl Cabbarov burada yeni biznes və investisiya imkanlarını qeyd edib, Ağdam Sənaye Parkının strateji əhəmiyyətini vurğulayıb və işğaldan azad edilmiş ərazilərdə yeni sənaye zonasının yaradılacağını deyib.

“AHK Azərbaycan”ın İdarə Heyətinin sədri Fərid İsayev dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edib, dialoq mühitinin inkişafında dövlət qurumlarının, o cümlədən İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın yaradılmasının əhəmiyyətini vurğulayıb. Fərid İsayev “Azərbaycanda xarici biznes: Biznes mühiti sorğusu 2021” hesabatının hazırlanması zamanı ölkəmizdə təmsil olunan xarici şirkətlər arasında ətraflı sorğular aparıldığını, onların işgüzar mühit, habelə işğaldan azad edilmiş ərazilərdə biznesin qurulması və bərpa işlərində iştirakı barədə fikirlərinin öyrənildiyini diqqətə çatdırıb. Bildirilib ki, “AHK Azərbaycan”ın işğaldan azad edilmiş ərazilərində infrastruktur layihələrinin sürətli icrasını diqqətlə izləyir. Qeyd edilib ki, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, habelə Zəngəzur dəhlizinin yaradılması istiqamətində aparılan aktiv işlər biznes üçün yeni imkanlar yaradır. İcraçı direktor vurğulayıb ki, AHK-a üzv şirkətlər işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq layihələrinə böyük maraq göstərir.

“AHK Azərbaycan”ın icraçı direktorunun müavini Nigar Bayramlı “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatı ilə bağlı təqdimatla çıxış edib. Qeyd edib ki, hesabat 2021-ci ilin may-iyul aylarında Azərbaycanda fəaliyyət göstərən xarici biznes nümayəndələri arasında keçirilən Biznes Mühiti Sorğusunun nəticələrinə əsaslanır. Hesabatın hazırlanması üçün Azərbaycanda fəaliyyət göstərən və 30 ölkəni təmsil edən 270 xarici şirkətə sorğu göndərilib, dəyərləndirmə üçün 130 etibarlı və tamamlanmış cavab seçilib. Sorğuda iştirak edən xarici şirkətlərin 88 faizi mikro müəssisələr və KOB-lardır. Şirkətlərin 67 faizi 10 ildən çoxdur ki, Azərbaycanda öz layihələrini həyata keçirir. Respondentlərin 68 faizi Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətini stabil qiymətləndirib. Əvvəlki hesabatda bu göstərici 39 faiz təşkil edirdi. Xarici şirkətlərin 57 faizi Azərbaycanda fəaliyyətini genişləndirmək və ya yeni investisiya qoymaq niyyətini ifadə ediblər. Sorğuda iştirak edən xarici şirkətlərin 43 faizi fəaliyyət sahələri üzrə işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak edə biləcəklərini, 22 faizi bu layihələrdə iştirakının mümkünlüyünü, 17 faizi isə yüksək maraq göstərdiklərini bildiriblər. Respondentlərin 60 faizi Azərbaycanı əlverişli biznes məkanı kimi tövsiyə edir.

Hesabatda, həmçinin biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatların davam etdirilməsi gözləntiləri də əksini tapıb. Sonra hesabat barədə ekspertlərin rəyləri dinlənilib.

AZƏRTAC

Polis Akademiyasının yaranmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasının yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasim keçirilib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Polis Akademiyasında keçirilən mərasimdə əvvəlcə ümummilli lider Heydər Əliyevin, respublikanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Polis Akademiyasının təsis olunmasının 100 illik yubileyi münasibətilə bu təhsil ocağının şəxsi heyətini, məzunlarını, veteranlarını təbrik edib.

Akademiyanın keçdiyi şərəfli yola nəzər salan Vilayət Eyvazov bildirib ki, 1921-ci ildə milis nəfəri və komandir kadrları hazırlayan məktəb statusunda yaradılmış bu tədris müəssisəsi Akademiya səviyyəsinə qədər yüksəlib, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçib.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif illərdə Akademiyada keçirilən təntənəli mərasimlərdə iştirak etdiyini, zəruri göstərişlər verdiyini, diqqət və qayğısı sayəsində bu təhsil müəssisəsinin maddi-texniki bazasının, tədris prosesinin əhəmiyyətli şəkildə təkmilləşdiyini diqqətə çatdırıb. Müəllim və kursantların istifadəsinə müasir tədris korpusları və texnoloji avadanlıq, yeməkxana və yataqxanalar, idman kompleksi, virtual təlim otaqları, poliqon, zəngin fondu olan elektron kitabxana, xarici dil mərkəzi, konfrans zalı verildiyi vurğulanıb.

Çıxışda Akademiyanın beynəlxalq əlaqələrini ildən-ilə genişləndirərək xarici ölkələrin 20-dən çox xüsusi təyinatlı təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirdiyi, tədris prosesində informasiya texnologiyalarından geniş istifadə olunduğu, xüsusi metodlara və interaktiv təlimə üstünlük verildiyi, kursantlara vətənpərvərlik hissi, zabit qüruru, saf mənəviyyat aşılandığı, bütün bunların mütəxəssis hazırlığını şərtləndirən mühüm amillər olaraq cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində müsbət nəticələrin əldə olunmasına zəmin yaratdığı bildirilib.

Azərbaycan polisinin peşəkar, milli ruhda tərbiyə olunmuş, dövlətçiliyə, Vətənə və xalqa sadiq bütöv bir nəslinin ərsəyə gəlməsində Polis Akademiyasının da əhəmiyyətli rolunu xüsusi vurğulayan nazir diqqətə çatdırıb ki, ötən 100 ildə bu təhsil müəssisəsinin məzunlarının ümumi sayı təxminən 25 min nəfər təşkil edib və bu gün daxili işlər orqanları üzrə şəxsi heyətin 82 faizi ali təhsilli hüquqşünaslardır. Məzunlardan 25 nəfəri ali rütbələrə, 12 nəfəri (6-sı ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Çıxışında professor-müəllim heyətinin qarşısında duran vəzifələrə xüsusi yer verən daxili işlər naziri bildirib ki, onlardan başlıcası Azərbaycanın ali təhsil müəssisələrinin sırasında layiqli yeri olan Akademiyanı, buradakı tədris və təlim prosesini qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdirmək, polisdə xidmətin bütün şərtlərinə cavab verən ixtisaslı kadr hazırlığı fəaliyyətini hərtərəfli dəstəkləmək, kursant və dinləyicilərdə analitik düşüncə tərzi, müasir texnologiyalarla işləmək, ekstremal şəraitdə düzgün qərar çıxarmaq və tədbirlər görmək vərdişi formalaşdırmaq, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığını yüksəltmək, hər bir fənnin tədrisi prosesində qanunla müəyyən edilmiş funksiyaların icrasını vətəndaş məmnunluğu prinsipi üzərində qurmağı öyrətmək, zəruri biliklərə və iş metodlarına yiyələndirmək, yeni təsis olunmuş magistratura və doktorantura pillələrində Akademiya, bütövlükdə daxili işlər orqanları üçün elmi potensiallı mütəxəssislər yetişdirməkdir.

Mərasimdə, həmçinin Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov çıxış edərək planlaşdırılan və görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıya qoyulmuş vəzifələrin icrası barədə məruzə edib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu təhsil ocağına əvvəlki illərdə rəhbərlik etmiş polis veteranlarını da təbrik edərək, onlara Akademiyanın 100 illiyi münasibətilə hazırlanmış döş nişanlarını təqdim edib.

Təntənəli mərasim Akademiyaya yeni qəbul olunmuş kursantların andiçmə mərasimi və şəxsi heyətin tribuna önündən keçidi ilə başa çatıb.

AZƏRTAC

Tvinninq layihəsi çərçivəsində Medianın İnkişafı Agentliyində görüş keçirilib

Sentyabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi” adlı Tvinninq layihəsi çərçivəsində Medianın İnkişafı Agentliyində görüş keçirilib.

Medianın İnkişaf Agentliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Tvinninq layihəsinin “İctimai maarifləndirmə kampaniyasının aparılması” adlı komponenti çərçivəsində Bakıya səfər edən avstriyalı ekspertlər Tomas Heinlen və Manuela Harqazner-Delpos, rezident tvinninq əlaqələndiricisi Laurinas Totoraitis, eləcə də Dövlət Komitəsinin İnformasiya şöbəsinin müdiri Elgün Səfərov iştirak ediblər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qurumun fəaliyyəti barədə məlumat verib. Mediada məişət zorakılığı məsələlərinin işıqlandırılması ilə

bağlı müxtəlif məqamları müzakirə edib və bu sahədə jurnalistlərin məlumatlılığının artırılmasının əhəmiyyətini vurğulayıb.

Laurinas Totoraitis isə media nümayəndələri üçün nəzərdə tutulan təlimlərin təşkilində MEDİA Agentliyinin rolunu xüsusi qeyd edib.

Görüşdə bildirilib ki, bu ekspert missiyası çərçivəsində məişət zorakılığı sahəsində ictimai maarifləndirmə kampaniyasının aparılması üzrə proqramın işlənib hazırlanması nəzərdə tutulub. Proqram Tvinninq layihəsinin ekspertlərinin dəstəyi, Dövlət Komitəsinin müvafiq əməkdaşları və media nümayəndələrinin iştirakı ilə hazırlanacaq.

Qeyd edək ki, layihənin məqsədi məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsidir.

AZƏRTAC

Hacı Ali Açıkgül:

İşğaldan azad olunmuş ərazilərdə faktaraşdırıcı missiya həyata keçirəcəyik

İşğaldan azad olunmuş ərazilərdə faktaraşdırıcı missiya həyata keçirəcəyik.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan ombudsmanı Səbinə Əliyevanın dəvəti ilə ölkəmizə səfərə gələn İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədr müavini Hacı Ali Açıkgül jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, ermənilərin işğalçılıq dövründə pozduğu bütün insan, mədəni, dini haqların hər biri aktlaşdırılacaq. Sədr müavini sentyabrın 24-də azad olunmuş ərazilərdə faktaraşdırıcı missiya həyata keçirəcəklərini bildirib. Diqqətə çatdırıb ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud vəziyyətlə bağlı hesabat 2022-ci ildə İƏT-in Xarici İşlər Nazirləri Şurasının iclasında müzakirəyə çıxarılacaq.

AZƏRTAC

AZƏRBAYCAN POLİSİ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SAYIQLIĞINI DAHA DA GÜCLƏNDİRİR

(əvvəli 1-ci səhifədə)

Onlardan 66 nəfəri şəhid olub, 346 nəfəri yaralanıb. Dövlətimizin başçısı Daxili Qoşunların döyüş tapşırıqlarının yerinə yetirilməsində fərqlənən 1377 hərbçisini orden və medallarla təltif edib, 1-i ölümündən sonra olmaqla, 4 nəfərini Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüb.

Gələn il yaradılmasının 30-cu ildönümü qeyd olunacaq Daxili Qoşunlar Daxili İşlər Nazirliyinin tabeliyindəki hərbi birləşmə kimi şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyinin, vətəndaşların Konstitusiya hüquqlarının və azadlıqlarının cinayət və digər hüquqazidd qəsdlərdən qorunmasında fəal iştirak edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə də Daxili Qoşunlar onlara həvalə edilmiş vəzifələri layiqincə yerinə yetirirlər.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin müvafiq fərmanları ilə ötən il sentyabrın 28-dən dekabrın 12-dək ölkəmizdə hərbi vəziyyət elan edilib və həmin dövrdə Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax, Ağstafa rayonlarında komendant saatı tətbiq olunub. Komendant saatının tətbiqindən irəli gələn tədbirlər Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilib. Bundan başqa, dövlətimizin başçısının “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 29 oktyabr 2020-ci il tarixli Fərmanına uyğun olaraq, ölkəmizin inzibati ərazi bölgüsünə müvafiq qaydada hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılıb, komendantların təyin edilməsi və fəaliyyətinin təşkil olunması Daxili İşlər Nazirliyinə tapşırılıb. Müvəqqəti komendantlıqlar hazırda da fəaliyyət göstərir, onların nəzdində bir sıra dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə əməliyyat qərargahları da yaradılıb.

Müvəqqəti komendantlıqlar fəaliyyət göstərdikləri ərazilərdə mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsi, kənd təsərrüfatı texnikası istisna olmaqla, digər

mülki təyinatlı texnikanın, nəqliyyat vasitələrinin inventarlaşdırılması, saxlanılması və mühafizəsi, aşkar edilmiş sənədlərin uçotunun aparılması və sonrakı təhlil üçün mühafizəsi, qanunvericiliklə müəyyən edilmiş digər tədbirlərin həyata keçirilməsi ilə bağlı vəzifələri yerinə yetirirlər.

İşğaldan azad edilmiş, lakin mina və partlamamış sursatlarla dolu olan ərazilərə mülki şəxslərin müvəqqəti komendantlıqların nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərməsi halları son vaxtlara qədər çox ciddi məsələlərdən biri idi. Daxili İşlər Nazirliyi belə şəxslərin özlərini təhlükəyə atmasının qarşısını almaq üçün zəruri qabaqlayıcı profilaktik tədbirlər həyata keçirir, həmçinin qanunsuz yollarla ərazilərə keçən şəxslər aşkar edilərək barələrində qanunvericiliyin tələbinə uyğun inzibati tədbirlər görür.

Ümumiyyətlə, polis və Daxili Qoşunlar milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayanır, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün səylə çalışırlar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında möhtəşəm Zəfərlə nəticələnən Vətən müharibəsi günlərində Daxili İşlər Nazirliyinin şəxsi heyəti ölkədə hərbi vəziyyət rejimini etibarlı şəkildə təmin edib, hazırda isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirir. Belə ki, işğaldan azad edilmiş rayonlarda polis şöbələrinin fəaliyyəti bərpa edilib, şəxsi heyətin öz vəzifələrini lazımi qaydada yerinə yetirməsi üçün zəruri texniki-məişət şəraiti yaradılıb. Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində polis əməkdaşlarına hətta ailələri ilə birlikdə məskunlaşmaq imkanı da yaradılıb.

Daxili işlər orqanlarının şəxsi heyətinə Vətən müharibəsinin gənc iştirakçılarının qəbul edilməsi son vaxtlar təqdirəlayiq ənənəyə çevrilib. Daxili İşlər Nazirliyi vaxtaşırı özünün rəsmi internet səhifəsində, sosial şəbəkə hesablarında və kütləvi informasiya vasitələrində elan yerləşdirərək, fiziki, mənəvi və bilik səviyyəsinə görə polis orqanlarında xidmətə yararlı olan gəncləri işə dəvət edir. Hər dəfə yüzlərlə gəncdən onlayn qaydada müraciət alınır və onlardan daha hazırlıqlı olanlar seçim turunun növbəti mərhələsinə buraxılır. Ənənəyə uyğun olaraq, bu il də Daxili İşlər naziri polis general-polkovniki Vilayət Eyvazov belə gənclərlə sıra baxışı keçirib, onlara zəruri tövsiyələrini verib. Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin gələcək inkişafının yüksək intellektual imkanlara malik, müasir texnologiyaları mükəmməl bilən, ən başlıcası, vətənpərvər, milli-mənəvi dəyərlərə bağlı, dövlətçiliyə sadiq gənclərlə bağlı olduğunu dəfələrlə bəyan edib. Polisə işə qəbul zamanı bu keyfiyyətlərə xüsusi diqqət yetirilir. Taleyini polis peşəsinə bağlamağa hazırlaşan gənclər qarşısında çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin gənclər siyasəti və bu siyasətin prioritetlərini diqqətə çatdıran nazir, onlara polis adını və şərəfini uca tutmağı, bilik və bacarıqlarını, dünyagörüşlərini daim artırmağı, öz üzərlərində səylə çalışmağı və vətəndaş məmnunluğunun təminə layiqli töhfələrini verməyi tövsiyə edir.

Bu ilin mart ayından etibarən nazirliyin mətbuat xidmətinin vakant polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışının keçirilməsinə dair məlumatlarında seçim turunun növbəti mərhələsinə buraxılan iddiaçılar arasından torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak etmiş gənclərin sayı ayrıca göstərilir. Həmin məlumatlara əsasən, iddiaçılar arasından növbəti seçim turuna buraxılanların mart ayında 57, aprel ayında 36, iyun ayında 33, avqust ayında 62, sentyabr ayında 77 nəfəri Vətən müharibəsinin iştirakçısı olub. Bundan başqa, şəhid ailələrindən olan 9 nəfər də növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

Bu gün Azərbaycan daxili işlər orqanlarının, onun cəsur və mənəviyyatca saf əməkdaşlarının qarşısında mühüm vəzifələr durur. Şərqi Zəngəzurda və Qarabağda xidməti vəzifələrini yerinə yetirən əməkdaşlar və hərbçilər bu vəzifələri yerinə yetirərkən xüsusilə diqqətli və sayıq olmalı, dövlətimizin və xalqımızın maraqlarının yüksək səviyyədə qorunmasını təmin etməlidirlər. Bu gün dövlət sərhədlərimizdə təşkil edilən polis postlarından gələn xəbərlər onların öz işlərini peşəkarlıqla və vətənpərvərliklə gördüklərini bir daha təsdiqləyir.

Möhtərəm RƏCƏBOVA,
“Respublika”.

Kamran Əliyev:

MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclası hərtərəfli hüquqi əməkdaşlıq baxımından çox əhəmiyyətlidir

MDB iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultanda keçirilən 31-ci iclasında Azərbaycan da nümayəndə heyəti ilə təmsil olunur. Bu tədbir Azərbaycanın hüquq-mühafizə orqanları, o cümlədən prokurorluğu üçün mühüm hadisələrdən biridir.

Bu fikri Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev sentyabrın 23-də Nur-Sultanda AZƏRTAC-a müsahibəsində deyib.

İclasın MDB iştirakçı dövlətlərinin Baş prokurorluqları ilə cinayətkarlığa qarşı mübarizə, prokurorluğun fəaliyyətinin müxtəlif sahələri üzrə hərtərəfli hüquqi əməkdaşlığın həyata keçirilməsi baxımından əhəmiyyətini yüksək qiymətləndirən Kamran Əliyev deyib: "Bu tədbir, həmçinin digər ölkələrin prokurorluq orqanları ilə ikitərəfli əlaqələrin qurulması, inkişaf etdirilməsi, daha səmərəli əməkdaşlığın həyata keçirilməsi baxımından zəruri idi. Bu gün Qazaxıstan Respublikasının və Rusiya Federasiyasının Baş prokurorları ilə görüşlərimiz oldu. Həmin görüşlərdə ikitərəfli münasibətlərin daha da intensivləşdirilməsi məsələsi müzakirə edildi. Mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də "Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında" memorandumun imzalanması oldu. Memoranduma uyğun olaraq, gələcəkdə bu sahədə fəaliyyətimizi davam etdirəcəyik".

İclas çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında keçirilən üçtərəfli görüşlə bağlı məlumat verən Kamran Əliyev qeyd edib: "Bu, bizim üçtərəfli formatda ikinci görüşümüz idi. Birinci görüş bu il yanvarın 12-də Moskvada baş tutmuşdu. Nur-Sultanda təşkil olunan görüşdə əsas məqsəd Azərbaycan Prezidentinin, Rusiya Prezidentinin və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarının prokurorluq orqanlarına aid müvafiq bəndlərinin icrası ilə bağlı idi. İclasda bir sıra zəruri məsələlər müzakirə olundu və bu istiqamətdə Rusiya Baş Prokurorluğunun vasitəçiliyi ilə fəaliyyətimizi davam etdirməyi qərara aldıq. Hesab edirəm ki, bu sahədə də bizim fəaliyyətimiz müsbət nəticələr verəcək".

AZƏRTAC

Azərbaycanın Baş prokuroru MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib

Sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultanda Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, MDB dövlətlərinin prokurorluq orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxslərinin qatıldıqları tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Şuranın iclasında Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmus uğurlu nəticələr barədə ətraflı məlumat verərək, "Cinayət təqibindən kənar icraatlarda prokurorluğun fəaliyyəti" mövzusunda çıxış edib.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilib.

İclasda, həmçinin MDB dövlətlərinin Baş prokurorlarının və beynəlxalq təşkilatların rəhbərlərinin cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı prokurorluqların rolu haqda çıxışları dinlənilib.

Sonra təşkilati məsələlər müzakirə edilərək əməkdaşlıq haqqında müvafiq sənədlər imzalanıb.

Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov Şuranın növbəti il üçün sədri seçilib, Katibliyin məsul vəzifələrinə seçkilər keçirilib.

Şuranın 32-ci iclasının 2022-ci ildə Belarus Respublikasının paytaxtı Minskdə, 2023-cü ildə isə Bakıda keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev Qazaxıstanın Baş prokuroru Gizat Nurdauletov və Rusiyanın Baş prokuroru İqor Krasnov ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri, o cümlədən prokurorluqlarımız arasında imzalanmış bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Həmçinin səfər çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan Baş prokurorlarının üçtərəfli görüşü keçirilib. Görüşdə Azərbaycan Prezidentinin, Rusiya Prezidentinin və Ermənistan baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarının müvafiq bəndlərinin icrası, həmçinin hüquqi əməkdaşlıq mexanizmləri müzakirə olunub.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında memorandum" imzalanıb.

Baş prokuror Kamran Əliyevin Belarus, Qırğızıstan, Özbəkistan, Tacikistan və Moldovanın Baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə keçirdiyi görüşlərdə mövcud əlaqələr və əməkdaşlığın perspektivləri ətrafında faydalı müzakirələr aparılıb.

Tədbirlərdə Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov da iştirak edib.

AZƏRTAC

Nur-Sultanda Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib

Qazaxıstanın paytaxtı Nur-Sultanda MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə üçtərəfli formatın səmərəliliyi qeyd edilərək, son doqquz ay ərzində Qarabağda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilib.

Törədilmiş hüquqpozmalara dair məlumatların Qarabağda yerləşən Rusiya Sülhməramlı Qüvvələrinə təhkim olunmuş Baş Hərbi Prokurorluğun nümayəndələri ilə əlaqəli şəkildə mübadiləsinin, habelə həmin məlumatlar üzrə müvafiq tədbirlərin görülməsi sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilib.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev 44 günlük Vətən müharibəsindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini vurğulayıb. Minalanmış ərazilərin xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi qeyd olunub. Azərbaycan tərəfindən 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilib.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Görüşdə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləyiblər.

AZƏRTAC

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksində olublar

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Azərbaycan Prokurorluğunun yaradılmasının 103-cü ildönümü, habelə 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə prokurorluq əməkdaşlarını təbrik məqsədilə sentyabrın 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun Binəqədi rayonunun Dərnəgül yaşayış sahəsində yerləşən yeni inzibati bina kompleksində olublar.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində qonaqlar inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqlarına baxıblar.

Sonra Baş prokurorun müavini Elmar Camalovun rəhbərlik etdiyi heyət qonaqlarla görüşüb.

Görüşdə qonaqlara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəal hüquq-mühafizə siyasəti və yüksək dövlət qayğısı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirildiyi, infrastrukturunun yaxşılaşdırıldığı vurğulanıb, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verilib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə görülən işlərdən məmnunluğunu bildirib, 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə bütün prokurorluq əməkdaşlarına uğurlar arzulayıb.

Söhbət zamanı qarşılıqlı əməkdaşlığın istiqamətləri müzakirə edilib.

AZƏRTAC

İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti ilə ANAMA-da görüş keçirilib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində növbəti görüşü Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyində (ANAMA) olub.

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində birgə həyata keçirəcəkləri faktaraşdırıcı missiya və tarixi-mədəni abidələrə qarşı törədilmiş vandalizm hallarının monitorinqi ilə bağlı ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanovla görüşən qonaqlar ərazilərin minalardan təmizlənməsi ilə bağlı geniş müzakirələr aparıblar.

ANAMA-nın İdarə Heyətinin sədri Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməməsinin insanların həyat və sağlamlığı üçün ciddi təhlükə yaratdığını diqqətə çatdırıb.

Görüşdə bildirilib ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın imzalanmasından uzun müddət keçməsinə baxmayaraq, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməməsi işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işlərinin, dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsinə maneələr yaradır.

Faktaraşdırıcı missiya çərçivəsində nümayəndə heyəti işğaldan azad olunmuş bölgələrə səfər edəcək.

AZƏRTAC

Gürcüstanlı jurnalistlər və blogerlər Gəncədə Ermənistanın törətdiyi cinayətlərlə tanış olublar

Azərbaycana səfər edən bir qrup gürcüstanlı media nümayəndəsi və blogerlər Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət səhnələri ilə tanış olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi 19 nəfərdən ibarət nümayəndə heyətini ötən il oktyabrın 11-də və 17-də gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri, cəbhə zonasından kənarda yerləşən Gəncənin Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verilib ki, işğalçı dövlətin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da onlarla mülki şəxs həlak olub və yaralanıb.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Mülki vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Səfərdə iştirak edən gürcüstanlı jurnalist Maryam Latabidze AZƏRTAC-a müsahibəsində gördüklərindən dəhşətə gəldiyini deyib: "Mülki insanlara qarşı bu cür vəhşiliklər böyük faciədir. Azərbaycan sonda zəfər qazandı və öz ərazi bütövlüyünü bərpa etmək uğrunda böyük addım atdı. Həlak olan bütün dinc sakinlərə Allahdan rəhmət diləyirəm".

Qeyd edək ki, gürcüstanlı jurnalistlər ötən gün işğaldan azad edilən Şuşa şəhərində olublar.

AZƏRTAC

Torpağı Vətən, Vətəni bütöv edənlər

İMİŞLİ

VƏTƏN MÜHARİBƏSİNİN QƏHRƏMANLARI

Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində öz zəfər yürüşü ilə dünya hərb tarixinə parlaq səhifə yazdı. Xarici havadarlarının köməyi ilə işğal etdiyi ərazilərdə düşmənin tıkdiyi hərbi istehkamlar, topladığı döyüş texnikaları və canlı qüvvəsi Azərbaycan Ordusu tərəfindən 44 gün ərzində darmadağın edildi.

Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 8-də Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Eldəniz Hüseynov vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Hərbi Xidmətə görə" medalları ilə təltif edilib.

Ərəstun ABDULOV,
"Respublika".

Vətən müharibəsində fəal iştirak edən şəhid Hüseynov Eldəniz Tahir oğlunun doğum günü qeyd edildi. Yaşasaydı Eldəniz Tahir oğlu Hüseynovun 25 yaşı olacaqdı. Bu münasibətlə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, Aparatın məsul işçiləri və şəhidin yaxınları tərəfindən Eldənizin dəfn olunduğu şəhər qəbiristanlığında məzarı ziyarət edilib, məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub və əziz xatirəsi ehtiramla yad edildi.

Şəhidimiz Eldəniz Hüseynovun doğum günündə adını daşıyan xatirə bulağının da açılışı oldu. Tədbirdə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qüdrətli Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən söz açan İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev həmin qələbədə payı olan Eldəniz Hüseynov kimi qəhrəman oğullarımızla hər birimizin fəxr etdiyini bildirdi. Qeyd etdi ki, Azərbaycanın tarixi zəfərinin mənbəyi xalqımızın həmrəyliyi, Ali Baş Komandanın ətrafında sıx birləşən xalqın inamı, Azərbaycan Ordusunun məğlubedilməzliyi, hünəri və qətiyyəti idi. Çıxış edənlər 44 günlük müharibədə əldə etdiyimiz şanlı Qələbəyə görə Ali Baş Komandana, şanlı Azərbaycan Ordusuna, şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu söylədilər.

Şəhidimiz Vətən müharibəsində

Hərb tariximizin şanlı əsgərləri

Şanlı Qələbə ilə başa çatan Vətən müharibəsində Azərbaycan əsgəri sözün əsl mənasında qanını, canını verib Qarabağı azad edib, düşməni torpaqlarımızdan qovub, həm də xalqımızın hərb və qürur tarixini yazıb. Torpaqlarımızı işğal edərək otuz ilə yaxın əsarətdə saxlayan Ermənistan ordu hissələrinə sarsıdıcı zərbələr vuran oğullar qəhrəmanlıq dastanı yaratdılar, torpağımıza göz dikən düşməni əzib keçdilər.

Böyük Zəfərə aparan yol məhz ötən ilin sentyabrında başlayıb. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlaması barədə qərar verildi. Tarixi qələbə ilə başa çatan Vətən müharibəsi xalqımızın 30 illik həsrətinə son qoydu.

Vətən müharibəsinin başlanmasının bir ili tamam olur. Şəhid və qazi ailələrinə həmişə diqqət və qayğı göstərən Ağcabədi Rayon İcra Hakimiyyəti tərəfindən şəhid ailələri ilə görüşlər davam etdirilir. Bu günlərdə rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, hüquq-mühafizə orqanlarının əməkdaşları və II Qarabağ müharibəsi qazisi Elşad Heydərovla birgə Xocavənd kəndində şəhid Mirağa Əliyevin, Avşar kəndində Azad Tapdıqovun, Qaravəlli kəndində Xəzər Bayramovun, Qiyaməddinli kəndində Məhəbbət Quliyevin, Hüsülü kəndində Fəryad Xəlilovun evlərində olub, valideynləri və digər ailə üzvləri ilə görüşüb, onların problem və qayğıları ilə maraqlanıblar.

Torpaqlarımızın işğaldan azad edilməsində öz canlarından keçən şəhidlərə dövlət səviyyəsində olan diqqətdən ətraflı söz açılıb, ölkəmizin hər yerində olduğu kimi, Ağcabədidə də şəhid ailələrinin problem və qayğılarının ən ümdə məsələ olduğu vurğulanıb. Övladları haqqında xatirələrini bölüşən şəhid valideynləri göstərilən qayğıya görə ölkə rəhbərinə, Qalib Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, 2020-ci il dekabrın 2-də Prezident İlham Əliyev Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Həmin sərəncama əsasən hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd ediləcək.

Salman ALIOĞLU,
"Respublika".

QÜRUR MƏNBƏYİMİZ

Şəhidlik əlçatmaz zirvədir. Özlərinə əbədiyyət heykəli ucaldaraq şəhid adını qazanan igid oğullarımız xalqımızın qəhrəmanlıq tarixində həmişə yaşayacaq və xatırlanacaq. İllər keçsə belə onların Vətəninə, xalqına, millətinə olan sevgisi hər birimiz üçün örnək olacaq.

Ağdaşda qarşıdan gələn Anım günü ilə əlaqədar şəhid ailələrinin ziyarəti davam edir. 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan rayonun Pirəyir kəndindən olan şəhid Mustafayev Siyasət Azər oğlu, Nehrəxəlil kəndindən olan şəhid Çələbili Vüqar Fərəcullah oğlu və Gürcuva kəndindən olan şəhid Hacıyev Murad Eynulla oğlunun məzarları rayon icra hakimiyyətinin əməkdaşları və ictimaiyyətin nümayəndələri tərəfindən ziyarət olunub, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin ailələrinə baş çəkilmiş, çay süfrəsi ətrafında doğmaları ilə birgə onların döyüş yolu barədə ətraflı söhbət açılmış, xatirələri ehtiramla yad edilmişdir. Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına öz təşəkkürlərini bildiriblər. Şəhid ailələrinə sovqatlar təqdim edilib.

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Vəliyev Azər Vəli oğlunun doğum günü münasibətilə doğulub boya-başa çatdığı Orta Ləki kəndində inşa edilən xatirə lövhəsinin açılış mərasimi keçirilib.

Açılış mərasimində rayon icra hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin əməkdaşları, Gənclər və İdman İdarəsinin nümayəndələri, məktəblilər, şəhidin ailə üzvləri, yaxınları iştirak edibdir. Tədbirdə Dövlət Himni səsləndirildi, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Şəhid Azər Vəliyev haqqında xoş xatirələr yada salındı. Rayon Mədəniyyət Mərkəzinin dəstəyi ilə məktəblilərin ifasında bədii kompozisiya təqdim edildi.

44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlığına görə Vəliyev Azər Vəli oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Zabit XƏLİLOV,
"Respublika".

Küçə Fərid Mövsümovun adını daşıyacaq

GÖYÇAY

44 günlük Vətən müharibəsi zəfər tariximizin ən şanlı səhifələrindəndir. Bu tarix və qazanılan qələbə hələ uzun illər Azərbaycan hərb elminin uğuru kimi tədqiqat mövzusu olaraq araşdırılacaq, eyni zamanda ümumtəhsil məktəblərində tədris edilərək öyrəniləcəkdir. Torpaqlarımızın azad edilməsi uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmış Vətənin qeyrətli oğulları isə bu tarixin ölməz müəllifləri kimi xalqın yaddaşında əbədi yaşayacaq.

Göyçay rayonunda şəhidlərə xüsusi ehtiram əlaməti olaraq, Vətən aşiqlərinin adlarının əbədiləşdirilməsi işi davamlı olaraq aparılır. Bu günlərdə Göyçayda şəhid Fərid Mövsümovun adına verilmiş küçənin təqdimatı olub. Fərid Zakir oğlu Mövsümov 1987-ci ildə Göyçay şəhərində anadan olub. Gənc yaşlarından valideynlərini itirən Fərid qohumlarının himayəsində böyüyüb. Vətənpərvərlik hissi güclü olduğundan, daim mübarizəyə can atıb. Vətən müharibəsində kəşfiyyatçı kimi peşəkarlıq göstərib.

Fərid Mövsümovun adının əbədiləşdirilməsi münasibətilə keçirilən tədbirdə rayon İcra hakimiyyətinin başçısı Mehdi Səlimzadə, din xadimləri, şəhidin yaxınları, qazilər və şəhər sakinləri iştirak ediblər.

Tədbirə toplaşanlar Şəhidlər Xiyabınına gedərək, qəhrəmanın xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Mehdi Səlimzadə bildirib ki, Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə gənclərimizin müqəddəs amalı bütöv Azərbaycan xalqının böyüklüyünü, müdrikliyini göstərir. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıqla yad edəcəklər. Hər birimizin borcudur ki, bizə qələbə sevinci bəxş edən şəhidlərimizi daim qəlbimizdə yaşadaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Tədbirdə şəhidin şərəfli döyüş yolundan və göstərdiyi şücaətdən danışılıb.

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Fərid Mövsümov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhidin yaxınları göstərilən diqqət və qayğıya görə ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığını bildiriblər.

Maarif RZAYEV,
"Respublika".

Şəhid ailələri ziyarət olunub

27 sentyabr Anım Günü ilə əlaqədar Şirvan şəhər İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə rəhbərləri şəhidlər Məmmədli Cavid Natiq oğlunun, Hüseynov Nicat Ziyafət oğlunun, Fərəcov Kamran İlqar oğlunun və Xəlilov Namiq İlyas oğlunun ailə üzvlərini yaşadıqları ünvanda ziyarət etdilər.

Ziyarət zamanı şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə şəhidlərə dövlət səviyyəsində verilən yüksək dəyərdən, şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışdı. Bu qayğının hər yerdə olduğu kimi, Şirvan şəhərində də mütəmadi davam etdirildiyini vurğuladı. Şəhid ailələrini dinləyib, onları maraqlandıran məsələlərlə bağlı ətraflı məlumat və izahatlar verdi. Prezident Administrasiyasının tapşırıq və tövsiyələrinə uyğun olaraq 27 sentyabr Anım Gününün yerlərdə də geniş qeyd edilməsi istiqamətində görülən işlərdən, maarifləndirmə tədbirlərindən danışdı. Belə görüşlərin mütəmadi davam etdiriləcəyini, şəhidlərin xatirəsinin dövlətimiz və cəmiyyətimiz tərəfindən daim əziz tutulacağını bildirdi. Vətən müharibəsində həlak olan bütün şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir dilədi.

Şəhid ailələri onlara göstərilən təşkilati dəstəyə, maddi və mənəvi köməkliklərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini və minnətdarlıqlarını bildirdilər.

Tofiq HÜSEYN,
"Respublika".

Xatirə turniri

Kürdəmir Rayon Gənclər və İdman İdarəsinin və Uşaq Gənclər İdman Şahmat Məktəbinin təşkilatçılığı ilə rayonun Heydər Əliyev parkında ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksəlmiş igid Azərbaycan oğullarının xatirəsinə həsr olunmuş gənclər arasında idmanın şahmat növü üzrə rayon turniri keçirilib.

Yarış koronavirus (COVİD-19) pandemiyası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın tələblərinə uyğun olaraq açıq havada baş tutub. Rayon turnirində Kürdəmir Regional "ASAN Xidmət" mərkəzinin və Kürdəmir DAİM-in əməkdaşları və idman könüllüləri iştirak ediblər. Yarışların açılış mərasimində ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş igid Azərbaycan oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yarışda şahmatçılar iki yaş qrupunda mübarizə aparıblar.

Olduqca maraqlı və gərgin keçən oyunların nəticələrinə əsasən 16 yaşadək gənclər arasında I yerə Amin Əzizov, II yerə Famil Hacıyev, III yerə isə Adil Haqverdiyev layiq görülüblər.

Gənclər arasında keçirilən yarışda I yeri Pünhan Məmmədov, II yeri Heydər Tağızadə, III yeri isə Ələddin Omarov və Elman Əhmədov tutublar. Qalib gələn gənclər Kürdəmir Rayon Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

T.YADULLAOĞLU,
"Respublika".

XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert Ağdamda təşkil olunub

Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində Ağdam rayonunun Quzanlı qəsəbəsində konsert təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağdam Muğam Mərkəzində keçirilən konsertdə F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər və baş dirijor Xalq artisti Ağaverdi Paşayev, baletmeyster Əməkdar artist Ceyhun Qubadov) geniş konsert proqramı ilə çıxış edib.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov, Mədəniyyət Nazirliyinin Musiqi sektorunun müdiri Vüqar Hümbətov, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar müəllim Xatirə Həsənzadə çıxış edərək, böyük bəstəkarın şərəfli ömür yolundan, zəngin və çoxşaxəli yaradıcılığından, milli musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətlərindən, dünya musiqi sənətinə verdiyi töhfələrdən danışıblar.

Konsertdə iştirakçılar Ü.Hacıbəylinin "Cəngi" miniatürünü, "Bayram suitası"nı, "Sevgili canan" romansını, "Arşın mal alan" musiqili komediyasından Gülçöhrənin ariyasını, "Uzundərə", "Nazələmə" rəqslərini, "Sarı gəlin", "Qarabağ şikəstəsi"ni, həmçinin Azərbaycan bəstəkarlarının əsərlərini zövqlə dinləyiblər. Xanəndələr İlkin Əhmədov, Rəvanə Əmiraslanlı, Almaz Orucova, müğənnilərdən Nərgiz Kərimova, Taleh Yəhyayev, Fəxri Kazım Nicat və başqalarının ifaları alqışlarla qarşılanıb.

AZƏRTAC

UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə ANAMA-da görüş olub

Sentyabrın 23-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Aleks Haykens ilə görüşüb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə Vüqar Süleymanov yeni təyinatı ilə bağlı Aleks Haykensi təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Sonra Agentliyin yaradılması, məqsədi və üzərinə düşən vəzifələri, qarşıya qoyulmuş prioritetləri, eləcə də işğaldan azad edilən ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarının gedişi barədə məlumat verib.

Mina və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə proqramı çərçivəsində ANAMA ilə UNİCEF-in bir neçə uğurlu layihələri haqda məlumat verən Vüqar Süleymanov mina riskinin azaldılması sahəsində göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib.

Aleks Haykens UNİCEF ilə Agentliyin 20 ilə yaxın sıx əməkdaşlıq tarixçəsinin olduğunu qeyd edib. İşğaldan azad edilən ərazilərin yaxınlığında yaşayan ailə və uşaqlar arasında təhlükəsiz davranış qaydaları və məlumatlılığın artırılması məqsədilə minimum risklərə nail olmaq üçün ikitərəfli əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb.

AZƏRTAC

AMEA-da "Zəfər dərsləri" elmi həftəsi

AMEA-nın İctimaiyyətlə əlaqələr və analitik informasiya sektorundan verilən məlumatda bildirilir ki, "Zəfər dərsləri" həftəsi çərçivəsində Akademiyanın bir çox institut və təşkilatlarında 27 sentyabr - Şəhidlərin Anım Gününə həsr olunmuş silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Anım Gününə həsr olunmuş ilk onlayn konfrans AMEA YAP Ərazi Təşkilatı, Humanitar və İctimai Elmlər Bölməsi və AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbənin əhəmiyyətindən danışıb. O, Şəhidlərin Anım Gününə həsr olunmuş bu konfransın 44 günlük müharibədə qazanılan tarixi qələbəmiz münasibətilə AMEA-da keçirilən ilk tədbir olduğunu diqqətə çatdırıb.

"Tarixi qələbəmizin öyrənilməsi istiqamətində AMEA qarşısında da mühüm vəzifələr durur", - deyən İ.Həbibbəyli AMEA Rəyasət Heyəti tərəfindən işğaldan azad edilmiş ərazilərdə tədbirlərin həyata keçirilməsinə dair fəaliyyət proqramının qəbul edildiyini bildirib. Vitse-prezident AMEA-nın kollektivi adından cənab Prezidentə qazanılan şanlı zəfər münasibətilə minnətdarlığını bildirib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova Azərbaycan xalqının uzunəsrlik tarixinə qızıl hərflərlə yazılan, 2020-ci ildə tariximizin əbədi qəhrəmanlıq salnaməsi olan zəfərimizin şəhidlərimizin qanı ilə yazıldığını bildirib. O, Anım Gününün Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq təsis edildiyini söyləyib.

Tədbirdə AMEA YAP Ərazi Təşkilatının sədri, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Ulduzə Qurbanova rəhbərlik etdiyi təşkilatın yaranma tarixi, üzvlərin sayı haqqında ətraflı məlumat verib. Bildirib ki, ümumilikdə, AMEA əməkdaşlarının 24 faizi AMEA YAP Ərazi Təşkilatının üzvüdür.

GAMŞ-ın sədri, fizika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov Azərbaycanın 44 günlük döyüşdə böyük şücaət tələb olunan savaşın canlı örnəyini dünyaya göstərdiyini, 30 ildən artıq müddətdə alınması mümkünsüz hesab olunan torpaqlarımızı geri qaytardığını bildirib.

Konfransda Füzuli və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə ön və arxa cəbhədə könüllü olaraq iştirak etmiş AMEA Şərqşünaslıq İnstitutunun elmi işçisi, ərəbşünas alim Pərviz Ağayev müharibə ilə bağlı təəssüratlarını bölüşüb. O, Vətən müharibəsi dövründə həyata keçirdiyi tədbirlərdən bəhs edib, qəhrəmancasına vuruşaraq həlak olmuş əsgər yoldaşlarını xatırlayıb. P.Ağayev xalqımızın hər zaman canlarını bu günlər üçün fəda etmiş şəhidlərimizi, onların qəhrəmanlıqlarını xatırlayacağını bildirib.

AMEA Qadınlar şurasının sədri, professor Rəna Mirzəzadə isə çıxışında Ağdam və Şuşaya baş tutan səfərləri zamanı şahid olduğu dəhşətli mənzərədən bəhs edib, xarabalıqlara döndərilmiş gözəl diyarımızın tezliklə yenidən bərpa olunması üçün görülən məqsədyönlü işlərdən danışıb.

Kamil İSMAYIL,
"Respublika".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan "Məşğulluq marafonu"nda iştirak edən işəgötürənlərin sayı artaraq 512-yə çatıb. Onların 268-i dövlət, 244-ü özəl müəssisələrdir. Vətən müharibəsində yaralanmış qazilərimizin və şəhid ailəsi üzvlərinin məşğulluğuna dəstək məqsədi daşıyan marafona işəgötürənlər tərəfindən artıq 2518 vakansiya təqdim edilib.

Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 736 nəfər (o cümlədən 122 şəhid ailəsi üzvü və 614 qazi) işlə təmin olunub. Hazırda da bu kateqoriyalardan olanlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

"Məşğulluq marafonu"na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərdən ibarət işçi qrupu Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini davam etdirir. Artıq Vətən müharibəsinin 2000 nəfərədək iştirakçısına ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı həyata keçirilib. Əlillik təyinatından dərhal sonra proaktiv qaydada onlara müvafiq sosial ödənişlər təyin edilib.

Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, qazilərin əlilliyinin qiymətləndirilməsi Nazirlər Kabinetinin Qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların ilk mərhələdə əyani müayinəsi keçirilməklə və müvafiq sənədləşdirmə işləri görülməklə aparılır.

Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə təqdim olunur. Həmin şəhadətnamə və tibb müəssisələri tərəfindən elektron sistemə daxil edilmiş göndəriş (forma 88) əsasında, yekun mərhələ olaraq əlilliyin qiymətləndirilməsi aparılır.

"Respublika".

DÜNYA XƏBƏRLƏRİ

FAKTLAR / HADİSƏLƏR / ŞƏRHLƏR

ABŞ VƏ İSRAİL ARASINDA İRANLA BAĞLI GİZLİ MÜZAKİRƏLƏR

ABŞ və İsrail ötən həftə gizli şəkildə görüş keçiriblər. "APA"nın xəbərinə görə, görüşdə məqsəd Vyanada İranın nüvə razılaşması ilə bağlı danışıqlar bərpa olunmayacağı təqdirdə ehtiyat planı müzakirə etmək olub. Bu barədə "Axios" portalı İsraildəki mənbələrə istinadən məlumat yayıb.

Bildirilir ki, Amerika-İsrail arasında gizli strateji işçi qrupu yeni İsrail hökumətinin hakimiyyətə gəlişindən sonra ilk dəfə görüşüb. Tədbir videokonfrans formatında keçirilib. Görüşdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Ceyk Sallivan və israilli həmkarı Eyal Xulata iştirak edib.

Mənbələrin açıqlamasına görə, tərəflər İranın nüvə proqramı ilə bağlı Birgə Hərtərəfli Fəaliyyət Planı üzrə danışıqların dalana dirənməsindən narahat olduqlarını diqqətə çatdırıblar. Bundan başqa, onlar İranın nüvə aktivliyinin artdığını qeyd ediblər. İsrail bu məqamda detalları açıqlanmayan "B planı"na keçməyin vacibliyini vurğulayıb. Eyni zamanda, ABŞ yaxın vaxtlarda danışıqlar bərpa olunmayacağı təqdirdə, İrana qarşı yeni sanksiyalar tətbiq edəcəyini açıqlayıb.

"TALİBAN" BEYNƏLXALQ İCTİMAİYYƏTİN ŞƏRTLƏRİNİ QƏBUL ETMƏYİB

"Taliban" hərəkatı Əfqanıstandakı yeni hökumətin tanınması ilə bağlı beynəlxalq ictimaiyyətin irəli sürdüyü şərtləri qəbul etməkdən imtina edib. "Report" agentliyinin verdiyi xəbərə görə, bunu yeni hökumətin informasiya və mədəniyyət nazirinin müavini Zəbiullah Mücahid "Skynews Arabia" telekanalına müsahibəsində bildirib.

"Bizim hökumətin tanınması ilə bağlı beynəlxalq ictimaiyyətin irəli sürdüyü şərtlər qəbuledilməzdir", - deyə nazir müavini vurğulayıb.

Zəbiullah Mücahid qeyd edib ki, belə tələblər beynəlxalq qanunvericiliyin pozulmasıdır. O deyib: "Hökumətin başqa dövlətlər tərəfindən tanınması "Taliban"ın, eləcə də əfqan xalqının hüququdur".

Qeyd edək ki, "Taliban" Əfqanıstanda müvəqqəti hökumətin tərkibini elan edib. Onun tərkibi bir çox ölkə tərəfindən tənqid olunub. Hələlik heç bir dövlət bu hökuməti tanımayıb.

AVROPA ÖLKƏLƏRİNDƏ QAZ EHTİYATLARI ƏN AŞAĞI SƏVİYYƏYƏ ENİB

Avropa ölkələrində qış mövsümünün başlamasına bir həftə qalmış yeraltı anbarlarda qaz ehtiyatları 2011-ci ildən bəri ən aşağı səviyyəyə enib, bu da son 10 ildə qeydə alınan ən minimal göstəricidir. "APA"nın verdiyi xəbərə görə, bu barədə "Röyters" agentliyi məlumat yayıb.

Avropa Qaz İnfrastrukturu Assosiasiyasının açıqlamasına görə, Avropa İttifaqı ölkələrində və Böyük Britaniyada qaz anbarları hazırda təxminən 72 faiz doludur.

Verilən xəbərə əsasən, bir il əvvəl anbarlarda qazın həcmi 94 faiz təşkil edirdi. Onillik ortalama məlumatlara görə, bir qayda olaraq, sentyabrın sonunda qaz anbarlarının 85 faizi dolu olurdu.

Avropada qış mövsümü oktyabrın 1-dən başlayacaq, o zaman həm qaza olan tələbat, həm də qiymətlər artmağa başlayacaq.

QİYAMÇI GENERAL ÖZ POSTUNDAN AYRILDI

Liviya şərqindəki qiyamçı qüvvələrin lideri general Xəlifə Həftar dekabrın 24-də keçiriləcək prezident seçkilərində iştirak etmək üçün "səlahiyyətlərini" üç aylıq təhvil verib. "Teleqraf.com"un xəbərinə görə, Xəlifə Haftar liderliyindəki hərbi qüvvələrin baş qərargah rəisi Əbdürrəzzaq ən-Nəzurini öz yerinə təyin edib. Məlumata əsasən, Əbdürrəzzaq ən-Nəzuri dekabrın 14-dək X.Həftarı əvəz edəcək.

Liviyanın Prezident Şurası və tabeliyindəki Milli Birlik Hökuməti BMT tərəfindən ölkənin legitim hökuməti sayılır. Şura rəhbəri Məhəmməd əl-Mənfi Liviya ordusunun ali baş komandanı hesab edilir. Lakin ölkənin şərqindəki qiyamçı qüvvələrə rəhbərlik edən Xəlifə Həftar legitim hökuməti tanımır, Liviya Silahlı Qüvvələrinin baş komandanı olduğunu iddia edir.

TÜRKİYƏ MİNLƏRLƏ HƏRBÇİNİ SURİYA İLƏ SƏRHƏD BÖLGƏSİNƏ GÖNDƏRDİ

Türkiyə Suriyanın şimal-qərbinə əlavə qoşun göndərib. "Teleqraf.com"un verdiyi xəbərə görə, bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.

Bildirilir ki, rəsmi Ankara uzun müddətdir ki, Rusiya tərəfindən dəstəklənən Suriya rejim qüvvələrinin İdlib əyalətinə hücum təşkil etmək cəhdlərinin Türkiyə sərhədinə yeni qaçqın axınına səbəb olacağından ehtiyat edir.

Agentlik qeyd edir ki, genişmiqyaslı hücum əlaməti olmasa da, rus təyyarələrinin və Suriya qüvvələrinin bölgəyə hücum saylarını artırması Türkiyə tərəfinin diqqətini çəkib.

Adı açıqlanmayan türk rəsmi şəxslərinə istinad edən agentlik iddia edir ki, İdlib istiqamətinə minlərlə əlavə əsgərin göndərilməsi Suriya quru qoşunlarının İdlibə hücumunun qarşısını almağa və Türkiyə sərhədinə gedən yolları nəzarəti götürməyə kömək edəcək.

ABŞ GENERALI RUSİYANI ÖLKƏSİ ÜÇÜN ƏSAS HƏRBİ TƏHLÜKƏ ADLANDIRIB

Amerika Silahlı Qüvvələrinin Şimal Komandanlığının rəisi general Qlen Van Herkin sözlərinə görə, Rusiya Birləşmiş Ştatlar üçün əsas təhdiddir. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə o, "Air Force Magazine" nəşrinə müsahibəsində bəyan edib.

"Rusiya bu gün vətən üçün əsas hərbi təhlükədir. Bu, Çin deyil, Rusiyadır", - deyə general qeyd edib.

Qlen Van Herkin sözlərinə görə, Çin "uzunmüddətli təhlükədir", lakin Rusiya daha çox hərbi gücə malikdir.

"Su qayıqlarına, bombardmançılara, qanadlı raketlərə və s. malik olan Rusiya əsas hərbi təhlükə yaradır", - deyə Şimal Komandanlığının rəhbəri fikrini yekunlaşdırıb.

Məlumat üçün qeyd edək ki, rəsmi Moskva dəfələrlə onun digər dövlətlərə qarşı aqressiv niyyəti olmadığını vurğulayıb.

"MODERNA" ŞİRKƏTİNİN RƏHBƏRİ: PANDEMİYA GƏLƏN İL BAŞA ÇATA BİLƏR

"Koronavirusa qarşı dərmanların hazırda artan istehsalı nəzərə alınarsa, pandemiya gələn ilin payızında başa çata bilər". "Report" agentliyinin məlumatına görə, bunu ABŞ-ın "Moderna" əczaçılıq şirkətinin baş direktoru Stefan Bansel bildirib.

Baş direktorun sözlərinə görə, son altı ay ərzində istehsalat sahələrinin artdığı əsas götürülərsə, Yer kürəsində hamının peyvəndlənməsi üçün lazımi miqdarda dərman dozalarının 2022-ci ilin ortalarınadək əldə ediləcəyini gözləmək olar.

Stefan Bansel həmçinin qeyd edib ki, hazırda dünya üzrə geniş yayılan koronavirusun "delta" ştammı xeyli yoluxucu olduğu üçün peyvəndən boyun qaçıranlar böyük ehtimalla xəstələnəcəklər.

BÖYÜK BRİTANİYADA MİNLƏRLƏ QANUNSUZ MİQRANT SAXLANILIB

Böyük Britaniyada sentyabr ayında La Manş boğazı ilə qayıqlarla ölkəyə qanunsuz keçmək istəyən 3,8 min nəfər aşkarlanaraq saxlanılıb. "Report"un "BBC" agentliyinə istinadən verdiyi xəbərə görə, bu da ötən ildən bu yana ən yüksək göstərici sayılır. Daxili İşlər Nazirliyinin məlumatına əsasən, ilin əvvəlindən ölkəyə qanunsuz gələnlər 16,3 min nəfərdir, halbuki ötən ildə bu göstərici 8,4 min olub.

Bildirilir ki, qanunsuz miqrantlar Böyük Britaniyada qanuni icazə alaraq iş və müavinət hüququ əldə etməyin daha asan olduğunu düşünərək bu ölkəyə keçməyə can atırlar.

Qeyd edək ki, Böyük Britaniyanın Daxili İşlər Nazirliyi ölkədə sığınacaq əldə etmək qaydasının islahatını nəzərdə tutan qanun layihəsini hələ iyul ayında parlamentə təqdim edib.

Hazırladı:
Vamiq ABBASOV,
"Respublika".

FHN-in xilasediciləri Zaqatalada çayda batmış şəxsin cəsədini çıxarıblar

Sentyabrın 23-də gecə saatlarından başlayaraq respublikanın şimal-qərb bölgəsinə yağan intensiv yağışlar nəticəsində bir sıra dağ çaylarında sululuğun artması, qısamüddətli sel və daşqın müşahidə olunub, Balakən və Zaqatala rayonlarının bir neçə yaşayış məntəqəsində bəzi fərdi evlər, həyətyanı və əkin sahələri, digər obyektlər və onların ətrafı subasmaya məruz qalıb.

Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yaranmış vəziyyətlə əlaqədar dərhal FHN-in müvafiq qüvvələri, o cümlədən Aviasiya dəstəsinin bir ədəd helikopteri xilasetmə, suçəkmə və digər təxirəsalınmaz tədbirlərin görülməsinə cəlb edilib. Helikopterin cəlb olunması ilə xilasedicilər tərəfindən sel nəticəsində Katexçay çayının Zaqatala rayonunun Mazıx kəndindən keçən hissəsində batmış 1968-ci il təvəllüdlü Abdulxalıqov Abdulbari Müslüm oğlunun cəsədi çaydan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Hazırda nazirliyin qüvvələri tərəfindən su basmış ərazilərdə, əsas etibarilə suçəkmə işləri həyata keçirilir.

AZƏRTAC

Bu gün COVİD-19 əleyhinə 62 min dozadan çox peyvənd vurulub

Sentyabrın 23-də Azərbaycanda 62 min 588 nəfər yeni növ koronavirus (COVİD-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 16 min 516, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 46 min 72 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 8 milyon 169 min 473, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 668 min 637, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 500 min 836 nəfər təşkil edir.

AZƏRTAC

Son sutkada Azərbaycanda koronavirus infeksiyasından 2322 nəfər sağalıb

Azərbaycanda yeni növ koronavirus (COVİD-19) infeksiyasına son sutkada 1178 yoluxma faktı qeydə alınıb, 2322 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 477 min 587 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 444 min 53 nəfər müalicə olunaraq sağalıb, 6 min 394 nəfər vəfat edib. Aktiv xəstə sayı 27 min 140 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 min 331, bu günə qədər isə ümumilikdə 4 milyon 790 min 724 test icra olunub.

AZƏRTAC

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən avadanlıqların alınması ilə bağlı elan olunmuş açıq tender üzrə sənədlərin qəbulu 04.10.2021-ci il saat 15:00-a, tender təklifi və bank təminatının təqdim olunması 12.10.2021-ci il saat 17:00-a qədər uzadılır.

Zərflərin açılışı 13.10.2021-ci il, saat 15:00 tarixdə dövlət satınalmaları üzərindən baş tutacaqdır.

Tender Komissiyası.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti

AÇIQ TENDERƏ DƏVƏT EDİR

"Bakı Konqres Mərkəzi" MMC-nin binasında istismar olunan kəsintisiz enerji mənbəyinin (UPS) akkumulyator batareyalarının satınalınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: 100 manat

İştirak haqqının ödənilməsi yalnız Asan Ödəniş vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz:

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Portalada tələb olunan sənədlər bölməsi üzrə:

1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi
3. Maliyyə vəziyyəti haqqında bank arayışı
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti
5. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri
6. Nizamnamə
7. Qeydiyyatdan keçdiyi ölkə
8. Rekvizitlər
9. Şərtlər toplusunda verilmiş Əlavə 3
10. Şərtlər toplusunda verilmiş Əlavə 4
11. Tender prosedurunda iddiaçı tərəfindən əlaqələndirici şəxs haqqında məlumat

2. Portalda texniki meyarlar üzrə:

Portalda texniki bölümündə qiymətləndirməni aparmaq üçün iddiaçı tərəfindən müvafiq sənədlər yüklənməlidir.

3. Maliyyə təklifi bölməsi üzrə:

1. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)
2. Tender təklifi əlavə 5 formasında (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 11.10.2021-ci il saat 11:00 tarixinə qədər, tender təklifi ilə bank təminatı sənədlərini 19.10.2021-ci il saat 16:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.10.2021-ci il saat 11:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

"Dənizkənarı Milli Park" MMC

AÇIQ TENDERƏ DƏVƏT EDİR

Müsabiqənin adı: **"Panorama attraksionuna ehtiyat hissələrinin alınması, texniki xidmət, proqram təminatının texniki dəstəyi, yaranan xətaların səbəbinin müəyyənləşdirilməsi, aradan qaldırılması, analizi və həll edilməsi işləri"nin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən şəxslər müsabiqə üzrə müəyyən edilən məbləğdə iştirak haqqını qanunvericiliyə uyğun şəkildə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə və müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

İştirak haqqı: 250 manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

TƏŞKİLAT: "Dənizkənarı Milli Park" MMC
H/H: AZ94İBAZ40060019449360874209
VÖEN: 1700875431
ABB "Səbail" Filialı
KOD: 805056
VÖEN: 9900001881
M/H: AZ03NABZ01350100000000002944
SWİFT BİK: İBAZAZ2X

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

1.İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;

2.Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

3.Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);

4.İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə arayış;

5.Vergilərə və sair icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;

6.Əsas Şərtlər Toplusunda müəyyən edilmiş digər müvafiq sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun dövlət satınalmalarının vahid internet portalı (www.etender.gov.az) vasitəsilə keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün tələb olunan sənədləri 19.10.2021-ci il, saat 12:00 tarixinə qədər və yuxarıda göstərilən digər sənədləri 27.10.2021-ci il, saat 12:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 28.10.2021-ci il, saat 12:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

Əlaqələndirici şəxs: Maliyyə üzrə xəzinədar - Ağababa Babayev

Tel: (012) 404-95-96.

Tender Komissiyası.

Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi mebel və digər idarəetmə inventarlarının satınalınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçiriləcəkdir.

Lot-1. Mebel və digər idarəetmə inventarlarının satınalınması.

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar 200,00 (iki yüz) manat məbləğdə iştirak haqqını (ASAN ödəniş vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi
VÖEN: 1700007431
Bank: DXA
Kod: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22
H/H: AZ28CTRE00000000000004138316
Fond: 7, Büdcə təsnifatı kodu: 142330

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

- tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (təklif zərfləri açıldığı gündən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması haqqında müvafiq vergi orqanından arayış;

- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması

- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;

- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;

- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;

- iddiaçıların son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

- iddiaçıların son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

- iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

- kommersiya qurumunun dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN);

- kommersiya qurumunun mikro, kiçik və orta sahibkarlıq subyekti meyarına aid olmalı və bu barədə vergi orqanından müvafiq arayış;

- materiallar üzrə sertifikatlar;

- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Üstünlük Azərbaycan dilinə veriləcəkdir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: Rizvan Həsənov

Ünvan: Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi, 30 ünvanında yerləşən AMEA Rəyasət Heyətinin inzibati binası.

Telefon: (012) 497 69 41

E-mail: k.mustafa91@bk.ru

İddiaçılar tenderdə iştirak üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 13 oktyabr 2021-ci il saat 15:00-a, tender təklifini və təklifin bank təminatını isə 21 oktyabr 2021-ci il saat 16:00-dək elektron portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet portal vasitəsilə qəbul olunmayacaqdır.

İddiaçıların tender təklifi zərfləri 22 oktyabr 2021-ci il saat 15:00-da dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron portal vasitəsilə izləyə bilər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

Tender Komissiyası.

INVITATION FOR BIDS

Date: 23/09/2021

1. Within the framework of the Program "Scaling up the response to the HIV epidemic through strengthening national capacities, prevention and treatment services for most at risk population and maintaining access to and quality of essential MDR/XDR TB services in the Republic of Azerbaijan" the Ministry of Health of the Republic of Azerbaijan (hereinafter - The Ministry of Health) invites sealed bids from qualified Bidders for delivery of "IT equipment".

2. Further additional information and documentation (standard bidding documents) can be obtained from PIU, Ministry of Health, 3, Aliyarbayov Street, Baku, Azerbaijan; Tel.: +994 12 498 20 01; E-mail tender@gfatm.az. The contract number for the grant from the Global Fund under which these goods will be procured is

AZE-C-MOH-1864

3. All bids shall be delivered to the above address at or before 16.00 p.m. Baku time on 04/10/2021. Late bids shall be rejected and returned unopened.

4. The Bids will be opened in the presence of the Bidders' representative who choose to attend the Ministry of Health, 3, Aliyarbayov str., Baku, Azerbaijan on 04/10/2021 at 16.30 p.m. Baku time.

Tender Committee.

Aqrar Sığorta Fondu "Ekonom sinfinə aid nəqliyyat vasitələri"nin satınalınması ilə bağlı kotirovka sorğusu həyata keçirir

İddiaçılar təkliflərini möhürlənmiş qaydada ikiqat zərflərdə 07 oktyabr 2021-ci il tarixdə saat 17:00-a qədər Azərbaycan Respublikası Aqrar Sığorta Fondunun Tender Komissiyasına təqdim etməlidirlər. Zərflər 08 oktyabr 2021-ci il saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər. İddiaçılar kotirovka sorğusunun əsas şərtlər toplusunu Aqrar Sığorta Fondunun inzibati binasında əlaqələndirici şəxsdən əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Elgün Mədətli
Telefon: *1651/ mobil: +994 77 200 60 00*
Ünvan: *Bakı şəhəri, Nobel prospekti ev 175, AZ 1008*
E-mail: *elgun.madatli@asf.gov.az*

Tender Komissiyası.

BİLDİRİŞ

26.07.2021-ci il elan edilmiş "Ölçü cihazlarının yoxlanılması" xidməti üzrə açıq tenderdə qalib gəlmiş "SCİENTECH.AZ " MMC ilə 17.09.2021-ci il tarixdə Respublika Gigiyena və Epidemiologiya Mərkəzi Publik Hüquqi Şəxsi arasında müqavilə bağlanmışdır.

Tender Komissiyası.

BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC tərəfindən 12 aprel 2021-ci il tarixində elanı verilmiş "Müxtəlif növ yastıqların" satınalınması məqsədilə keçirilən elektron açıq tenderin nəticələrinə "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Satınalmalar Komitəsi tərəfindən müsbət rəy verilmədiyi üçün tenderin nəticələri ləğv edilmişdir.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 10 saylı Ərazi İdarəsi tərəfindən Lənkəran rayonu, Liman şəhər sakini Fərəcli Ehtiram Ənvər oğluna verilmiş torpaq sahəsinin plan və ölçüsü (reyestr №8020130074262) itdiyi üçün etibarsız sayılır.

Hərbi qulluqçu Rüstəmov Saleh Valeh oğluna məxsus hərbi qulluqçunun hərbi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Astara rayonu, Ərçivan kənd sakini Əliyev Hüseyn Əliağa oğluna 24 noyabr 2003-cü il 06 saylı qərar ilə verilmiş torpaq sahəsinin plan və ölçüsü (80100018200711) itdiyi üçün etibarsız sayılır.

Şamilova Solmaz Əliqulu qızının adına verilmiş Azərbaycan Respublikasın Səhiyyə Nazirliyinin Tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması barədə 2077 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyası tərəfindən Camal Artur oğlu Asayevin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

"Respublika" qəzetinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin əməkdaşı Fərman Nağdəliyevə, həyat yoldaşı

LİMONA NAĞDƏLİYEVANIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
Hümbət MUSAYEV

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**

● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
E-mail: info@respublika-news.az
respublikaqezeti@mail.ru
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4907
Sifariş 1748
Qəzetin satış qiyməti 40 qəpik

● **Çapa imzalanmışdır**
23.09.2021